## 9 oktyabr Ümumdünya Poçt İşçiləri Günüdür

# Poçt filialı əhaliyə keyfiyyətli xidmət göstərir



Bu gün Azərbaycanda iqtisadi islahatlar uğurla davam etdirilir. Ölkəmiz dinamik iqtisadi inkişafına görə dünyada lider mövqedədir. Dövlətimizin uğurla həyata keçirdiyi iqtisadi islahatlar öz müsbət nəticəsini vermiş, bütün sahələrdə sürətli inkişafa nail olunmuşdur. Respublikamız ikinci dəfə öz dövlət müstəqilliyini qazandıqdan sonra bu tərəqqi dönəmi özünü daha bariz şəkildə göstərmişdir. Ulu öndərimiz Heydər Əliyev ölkənin sürətli inkişafında rabitə sektorunun ən əsas amillərdən olduğunu xüsusi vurğulayaraq deyirdi: "Müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır". Bütün bunlara çatmaq üçün 2003-cü il tarixli sərəncamla təsdiq edilmiş, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" qəbul olunmuşdur. Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş rabitə islahatları bu gün onun siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla, ardıcıllıqla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyev hakimiyyətə gələn ilk gündən ölkə rabitəsinin inkişafını öz fəaliyyətində ən əsas istiqamət, prioritet sahə elan etmişdir. Bu gün qloballaşan müasir dünyamızda informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə müasir dövrün tələbidir. Göstərilən diqqət və qayğının nəticəsidir ki, rabitə və yüksək texnologiyalar sektoru respublika iqtisadiyyatının ən yüksək templə, dinamik inkişafa malik olan sahəsidir. Azərbaycanda ilk süni peykin orbitə buraxılması, ölkəmizin kosmik sənayeyə malik olması rabitəmizin inkişafının bariz göstəricisidir. Azərbaycan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük nailiyyətlər qazanmış dövlətlərin sırasındadır. Bütün bu uğurların əldə olunmasında rabitə və yüksək texnologiyalar naziri, akademik Əli Abbasovun əməyini, gərgin fəaliyyətini də vurğulamaq lazımdır. Onun rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər müsbət nəticələrini verməkdədir. Bu gün Azərbaycan İKT sahəsində regionun ən inkişaf etmiş ölkəsidir.

Son illər böyük inkişaf yolu keçmiş Azərbaycan rabitə-poçt sektoru da özünün ən dinamik tərəqqi dövrünü yaşayır, yeni texnologiyalar tətbiq etməklə daha da modernləşir. İldən-ilə inkişaf edən Azərbaycan poçtu dünyada liderdir. Böyük tarixə və ənənəyə malik poçtumuz son zamanlar sözün əsl mənasında özünün intibah dövrünü yaşayır. 9 oktyabrda 141 illik yubileyini qeyd edən Azərbaycan poçtu 1993-cü ildən Ümumdünya Poçt İttifaqının üzvüdür və poçtumuz beynəlxalq təşkilatlarda bərabərhüquqlu üzv kimi təmsil olunur, beynəlxalq əlaqələri getdikcə genişlənir, yeni uğurlara imza atır. Son bir neçə ildir ki, poçtumuz, "Azərpoçt" MMC keyfiyyətinin yaxşılaşdırılmasına görə Ümumdünya Poçt İttifaqının qızıl səviyyəli sertifikatına layiq görülür. Ölkə əhalisinə daha keyfiyyətli poçt xidmətinin göstərilməsinin nəticəsində bu sahəyə maraq daha da artmış, poçt xidmətindən istifadə edənlərin sayı xeyli çoxalmışdır. Öz fəaliyyət sahəsini genişləndirən Azərbaycan poçtunda ənənəvi xidmətlərlə yanaşı, qeyri-ənənəvi xidmətlər, bank-maliyyə xidmətləri də yüksək keyfiyyətlə həyata keçirilir. Poçtda xidmətin genişləndirilməsi daha yüksək gəlirlərin əldə olunmasına şərait yaratmışdır.

Azərbaycanda vahid poçt operatoru olan "Azərpoçt" MMC və onun tərkibində fəaliyyət göstərən poçt müəssisələri də peşə bayramlarını təntənə ilə qeyd etmək əzmindədir. Bayram ərəfəsində həm "Azərpoçt" MMC-də, həm də poçt filiallarında müxtəlif tədbirlər keçirilir. Ümumdünya Poçt İttifaqının yaranmasının 141 illik yubileyini, peşə bayramlarını "Azərpoçt" MMC-nin 6 saylı poçt fililalının kollektivi də yüksək əhval-ruhiyyə ilə qarşılayır. Qeyd edim ki, filialımız "Azərpoçt" MMC tərəfindən təyin olunmuş 9 aylıq proqnoz tapşırıqlarına vaxtından xeyli əvvəl 104,41 faiz əməl etmişdir. Filial mənfəətlə işləyir. 9 ayda 103 faiz gəlir mənfəəti əldə olunmuşdur. Tarif gəliri proqnozu 1215.8 min manata qarşı fakt 1262.0 min manatdır. Proqnozdan artıq—16.2 min manatdan çox gəlir qazanılmışdır. 9 aylıq mənfəət xərclər üzrə proqnoz - 839.0 min manata qarşı 238.4 min manatdır. İcra faizi 100,3 faizdir.




Ötən 9 ayda ayrı-ayrı xidmət növləri üzrə də uğurlu göstəricilər qazanılmışdır. Poçt ödəniş nişanlarının satışı - 103,12 faiz, pul baratları - 115,10 faiz, dövri mətbuatın satışı - 100,5 faiz, bağlamalar - 101 faiz, telefon abunə haqlarının yığımı - 127,55 faiz, DSMF pulların qəbulu - 122,45 faiz, Dövlət Yol Polisi pullarının qəbulu - 112,18 faiz təşkil etmişdir. Bundan əlavə, sürətli pul köçürmələri üzrə göstəricilər belədir: (Zolotoya Korona, Miqom, Contakt, Western Union və s.) üzrə - 185,56 faiz, qiymətli banderol və məktublar - 100,21 faiz, xarici valyutanın alışı və satışı - 136,64 faizdir.

Poçt filialının tərkibində 23 poçt şöbəsi və 1 kuryer poçt fəaliyyət göstərir. Ötən 9 ayda 69, 54, 52 saylı poçt şöbələri əsaslı təmir olunmuşdur. 147 və 108 saylı şöbələrdə isə əsaslı təmir işləri davam etdirilir. 9 ayda qazanılan uğurların əsasında "Azərpoçt" MMC-nin rəhbərliyinin filial kollektivinə göstərdiyi qayğı və böyük dəstək durur.

Peşə bayramını yüksək əhval-ruhiyyə ilə qeyd edən filial kollektivi bundan sonra da poçt xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi üçün əzmlə çalışacaqdır. Fürsətdən istifadə edib bütün rabitə-poçt işçilərini 9 oktyabr peşə bayramı münasibətilə təbrik edirəm, onlara fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

**Samir HƏSƏNOV,**
**"Azərpoçt" MMC,**
**6 saylı poçt filialının rəisi.**